Yanvar 2026-cı il

# Hüquq və vergi məsələləri üzrə bülleten

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi



# Vergi və hüquq yenilikləri

Bu buraxılışda aşağıdakı məsələlərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- Dövlət müəssisələrinin büdcə monitorinqi və dividend siyasətinə dair yeni Qaydalar
- Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması
- İcbari sığorta Qaydalarına dəyişikliklər
- 2026-cı il üçün yaşayış minimumu
- Elektron Rəqabət İnformasiya Sistemi haqqında Əsasnamə təsdiq olunmuşdur
- Maliyyə İnstitutlarına Məlumat və Sənədlərin Təqdim edilməsinə dair Vergi Məcəlləsinə Dəyişikliklər
- “Rəqəmsal Dövlət Maliyyəsi” İnformasiya Sistemi haqqında Əsasnamə təsdiq olunmuşdur

## Dövlət müəssisələrinin büdcə monitorinqi və dividend siyasətinə dair yeni Qaydalar

*29 dekabr 2025-ci il tarixində “Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqi və icra göstəricilərinin təhlili Qaydaları” və “Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin xalis mənfəətinin bölüşdürülməsinə və dividend siyasətinin ümumi parametrlərinə dair Qaydalar”ın (“Qaydalar”) təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Fərman imzalanmışdır.*

Qaydalar dövlət müəssisələrinin xalis mənfəətin bölüşdürülməsinə, o cümlədən dövlət büdcəsinə dividend ödənişlərinə dair nəzarət mexanizmləri ilə bağlı hüquqi və təşkilati məsələləri tənzimləyir. Yeni Qaydalara əsasən dövlət müəssisələrinin xalis mənfəətindən minimum 30 faiz məbləğində dividend ödənilməsi müəyyən edilmişdir. Bununla belə, dividend ödənilmədən öncə aşağıda qeyd olunmuş hallar nəzərə alınmalıdır:

- Dövlət müəssisəsinin xalis mənfəəti ilk növbədə dövlət büdcəsi və/və ya dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu qarşısında cari il üzrə və əvvəlki illərdən yığılıb ödənilməmiş əsas və faiz borclarının ödənilməsinə yönəldilir.
- Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin hesabat ili üzrə xalis mənfəəti 100,000 (yüz min) manatdan az, dövlət adından yaradılan publik hüquqi şəxslərin xalis mənfəəti isə 20,000 (iyirmi min) manatdan az olduqda dövlət büdcəsinə dividend hesablanmır.

Qaydalara əsasən, dövlət müəssisəsi tərəfindən ölkənin sosial-iqtisadi fəaliyyəti ilə bağlı strateji layihələrin icrası həyata keçirilərkən həmin dövlət müəssisəsinin müvafiq dövr üzrə xalis mənfəətindən dövlət büdcəsinə dividend ödənişindən tam və ya qismən azadolma Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

Bu Qaydalar səhmləri Azərbaycan Respublikasından kənarda aparıcı birjaların listinq siyahısında yer alan dövlət müəssisəsinə şamil edilmir.

Bundan əlavə, Qaydalar dövlət müəssisələri üçün aşağıdakı öhdəlikləri müəyyən edir:

- Qaydalarda göstərilmiş müvafiq hesabatları 2026-cı il aprelin 1-dən başlayaraq Maliyyə Nazirliyinin müəyyən etdiyi formada Nazirliyə təqdim etmək;
- 2023 – 2025-ci illərin yekunu üzrə maliyyə hesabatlarını (maliyyə hesabatının tərtibi qanunla müəyyən edilmiş qaydada məcburi olduğu halda), habelə 2026-cı il üzrə təsdiq edilmiş büdcələrini 2026-cı il aprelin 30-dək Maliyyə Nazirliyinə təqdim etmək.

Qaydalarda müəyyən olunmuş hesabatlar aşağıdakılardır:

- büdcə layihələri və proqnozları – cari il iyulun 1-dək;
- büdcə – cari il dekabrın 31-dək;
- dəyişiklik edilmiş büdcəni (dəyişikliyin səbəbi göstərilməklə) – təsdiqləndikdən sonra 10 (on) gün müddətində;
- pul vəsaitinin hərəkətinə dair məlumatları – hər ay bitdikdən sonra növbəti ayın 15-dək;
- maliyyə vəziyyətinə və maliyyə fəaliyyətinə dair rüblük məlumatları – hər rüb bitdikdən sonra növbəti ayın 20-dək;
- dövlət müəssisələrinin xalis mənfəətinin bölgüsü barədə hesabatı – cari il avqustun 15-dək;
- dövlət müəssisələrinin borclarına, o cümlədən dövlət zəmanəti ilə təmin edilmiş borc öhdəliklərinə dair məlumatları – hər ay bitdikdən sonra növbəti ayın 10-dək

Fərman 29 dekabr 2025-ci  il tarixindən qüvvəyə minmişdir.

## Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması

*9 fevral 2026-cı il tarixində "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunda dəyişiklik edilməsi barədə Qanun qəbul edilmişdir.*

Qanuna əsasən, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2027-ci il yanvarın 1-dək dayandırılmışdır.

Qanun 01 yanvar 2026-cı il tarixində qüvvəyə minmişdir.

## İcbari sığorta Qaydalarına dəyişikliklər

*29 dekabr 2025-ci il tarixində Azərbaycan Respublikasının "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanununa dəyişikliklər ("Dəyişikliklər") edilmişdir.*

Dəyişikliklərə əsasən, aşağıda göstərilən subyektlərdə çalışan şəxslər, habelə istehsalat təcrübəsi (təlimi) keçən tələbə və şagirdlər, könüllü fəaliyyətin iştirakçısı olan könüllülər Dövlət Sosial Müdafiə Fondu vasitəsilə icbari sığorta olunurlar:

- Dövlət orqanları;
- Bələdiyyələr;
- Dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər;
- Dövlət adından yaradılan publik hüquqi şəxslər;
- Büdcə təşkilatları.

Digər sığortalılarda çalışan şəxslər, fərdi sahibkarlar, fərdi qaydada əmək fəaliyyəti ilə məşğul olan şəxslər yerli sığorta şirkətlərində icbari sığorta olunurlar.

Dəyişikliklər 1 yanvar 2026-cı il tarixindən qüvvəyə minmişdir.

## 2026-cı il üçün yaşayış minimumu

*9 dekabr 2025-ci il tarixində* "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanunu" *("Qanun") qəbul edilmişdir.*

Qanununa əsasən 2026-cı il üçün yaşayış minimumu ölkə üzrə 300 manat, əmək qabiliyyətli əhali üçün 317 manat, pensiyaçılar üçün 245 manat, uşaqlar üçün 260 manat məbləğində müəyyən edilmişdir.

Qanun 1 yanvar 2026-cı il tarixindən qüvvəyə minmişdir.

## Elektron Rəqabət İnformasiya Sistemi haqqında Əsasnamə təsdiq olunmuşdur

*26 yanvar 2026-cı il tarixində "Elektron Rəqabət İnformasiya Sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Prezidenti tərəfindən Fərman imzalanmışdır.*

"Elektron Rəqabət İnformasiya Sistemi" (bundan sonra – "ERİS") rəqabət və istehlakçıların hüquqlarının müdafiəsi sahələrində elektron

tənzimləmə və nəzarətin həyata keçirilməsini, analitik təhlil və hesabatların hazırlanması ilə bağlı proseslərin rəqəmsallaşdırılmasını, eləcə də səmərəlilik və effektivliyin artırılmasını, habelə xidmətlərin göstərilməsində əlçatanlığı, şəffaflığı və operativliyi təmin edir.

Bundan əlavə, Əsasnamə ERİS-in infrastrukturunu, onun altsistemlərini, daxil edilən və ötürülən məlumatlara dair qaydaları, sistemdən istifadə qaydalarını, həmçinin, sistem sahibinin, operatorun, iştirakçıların və istifadəçilərin hüquq və vəzifələrini tənzimləyir.

Fərman 26 yanvar 2026-cı il tarixində qüvvəyə minmişdir.

## Maliyyə İnstitutlarına Məlumat və Sənədlərin Təqdim edilməsinə dair Vergi Məcəlləsinə Dəyişikliklər

*30 dekabr 2025-ci il tarixində "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ("Dəyişikliklər") qəbul edilmişdir.*

Dəyişikliklərə əsasən, Vergi Məcəlləsinin 76-1-ci maddəsinə yeni müddəalar əlavə edilmişdir. Dəyişikliklərə görə, maliyyə institutları tərəfindən fiziki və hüquqi şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə şəxsin rezidentliyinin müəyyən edilməsi üçün zəruri məlumatlar və sənədlər həmin fiziki və hüquqi şəxslər tərəfindən təqdim olunmalıdır. Əlavə olaraq, şəxsin rezidentlik statusunun dəyişdirilməsinə səbəb olan dəyişiklik, 30 gün müddətində şəxs tərəfindən maliyyə institutuna təqdim edilməlidir.

Həmçinin, Dəyişikliklərə əsasən, yuxarıda qeyd edilən təqdimatla bağlı qaydalara əməl edilməməsi inzibati məsuliyyətə səbəb ola bilər.

Belə ki, 30 dekabr 2026-ci il tarixli "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanuna əsasən, sözügedən qaydalara əməl edilməməsinə görə cərimələr aşağıdakı kimi müəyyən edilmişdir:

- Fiziki şəxslər üçün 300 AZN;
- Hüquqi şəxslər üçün 1000 AZN.

Dəyişikliklər 01 yanvar 2026-cı il tarixində qüvvəyə minmişdir.

## "Rəqəmsal Dövlət Maliyyəsi" İnformasiya Sistemi haqqında Əsasnamə təsdiq olunmuşdur

*26 yanvar 2026-cı il tarixində "Rəqəmsal Dövlət Maliyyəsi" İnformasiya Sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" ("Fərman") Azərbaycan Respublikasının Prezidenti tərəfindən Fərman imzalanmışdır.*

Fərmana əsasən, “Rəqəmsal Dövlət Maliyyəsi” İnformasiya Sistemi (RDMİS) Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin fəaliyyətinin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin, RDMİS-də saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

RDMİS-in formalaşdırılmasının məqsədi Maliyyə Nazirliyinin fəaliyyət istiqamətlərinə aid sahələrin, o cümlədən büdcə, vergi, gömrük, dövlət rüsumu, dividend, audit, mühasibat uçotu, dövlət maliyyə nəzarəti, dövlət xəzinədarlığı, dövlət borcu və s. sahələrində dövlət maliyyə idarəetməsinin optimallaşdırılması, analitik təhlillər aparılması, proqnozların və hesabatların hazırlanması və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsidir. Maliyyə Nazirliyi RDMİS-in sahibi və operatoru funksiyalarını icra edir.

Bundan əlavə, Əsasnamə RDMİS-in infrastrukturunu, onun altsistemlərini, ötürülən məlumatlara dair təlimatları, sistemdən istifadə qaydalarını, həmçinin, sistem sahibinin, operatorun, iştirakçıların və istifadəçilərin hüquq və vəzifələrini tənzimləyir.

Fərman 26 yanvar 2026-cı il tarixində qüvvəyə minmişdir.

Əlaqə üçün:

Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:



Arzu Hacıyeva
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com



Məmməd Balacanov
Direktor, Hüquq xidmətinin rəhbəri, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
mammad.balajanov@az.ey.com

EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilərə, əməkdaşlara, cəmiyyətə və planetimizə yeni faydalar təqdim etməklə və kapital bazarlarına inamı artırmaqla daha yaxşı iş dünyasını qurmağa çalışır.

Geniş məlumat bazası, süni intellekt və qabaqcıl texnologiyaların dəstəyi ilə əməkdaşlarımız müştərilərə gələcəyə inamla addımlamağa, bu günün və sabahın ən mühüm məsələlərinin həll yollarını tapmağa kömək edir.

EY şirkətinin mütəxəssisləri audit, konsaltinq, vergi, strategiya və əməliyyatlar daxil olmaqla fərqli sahələrdə çeşidli xidmətlər göstərirlər. Sənaye təcrübəsindən, qlobal miqyasda inteqrasiya olunmuş, multidissiplinar şəbəkədən və vahid ekosistemdə çalışan fərqli tərəfdaşlarımızın köməyindən faydalanaraq biz 150-dən çox ölkə və ərazilərdə xidmətlər təklif edirik.

Biz birlikdə gələcəyi formalaşdırmaq missiyamızı inamla yerinə yetiririk.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. EY firmaları yerli qanunlarla qadağan olunduğu ərazilərdə hüquq xidmətləri göstərmir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

© 2026-cı il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.

Hazırkı nəşr yalnız məlumat məqsədilə hazırlanıb və uçot, vergi, hüquqi və ya digər peşəkar məsləhətin əvəzi kimi nəzərdə tutulmur. Konkret məsləhətlər almaq üçün məsləhətçilərə müraciət edin.

ey.com/az